**AZƏRBAYCAN RESPUBLİKASININ**

**AUDİTORLAR PALATASI ŞURASININ**

**QƏRARI**

**Bakı şəhəri** **№308/10** **22 fevral 2019-cu il**

**Auditorlar Palatasının 2018-ci il üzrə maliyyə hesabatlarının hazırlanması və onun auditinin aparılması barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2019-cu il üzrə iş planının 8.6-cı "Auditorlar Palatasının 2018-ci il üzrə maliyyə hesabatlarının hazırlanması və onun auditinin aparılması" bəndinin icrası ilə əlaqədar "Baltik Kaspian Audit" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən auditi aparılmış "01.01.2018-31.12.2018-ci maliyyə ili üzrə Azərbaycan Respublikası Auditorlar Palatasının Maliyyə hesabatları"na dair Maliyyə və təşkilati-texniki təminat idarəsinin rəisi V.Rəhimovun məruzəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "01.01.2018-31.12.2018-ci maliyyə ili üzrə Azərbaycan Respublikası Auditorlar Palatasının Maliyyə hesabatları" nəzərə alınsın (əlavə olunur).
2. Maliyyə və təşkilati-texniki təminat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, bir həftə müddətində Auditorlar Palatasının debitor, həmçinin ümidsiz borc məbləğlərinə dair arayışın hazırlanıb rəhbərliyə təqdim edilməsi təmin edilsin.
3. Palata sədrinin müşaviri F.Qarayevə və Aparatın informasiya texnologiyaları üzrə mütəxəssisi Z.Almazova tapşırılsın ki, bir həftə müddətində həmin hesabatın azərbaycan və ingilis dillərində Palatanın internet səhifəsində yerləşdirilməsi və ingilis dili variantının Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) göndərilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**